AMEA-nın FƏLSƏFƏ VƏ SİYASİ-HÜQUQİ TƏDQİQATLAR İNSTİTUTU

# YUSİF RÜSTƏMOV

# TARİX LOKAL SİVİLİZASİYALARIN QARŞILIQLI MÜNASİBƏTİ KİMİ (Arnold Toynbi)

Bakı – «Səda» nəşriyyatı - 2008

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

7465

60.033
R 96

Elmi redaktor: fəlsəfə elmləri doktoru,
professor Əbülhəsən Abbasov

Yusif Rüstəmov. Tarix lokal sivilizasiyaların qarşılıqlı münasibəti kimi. Bakı. «Səda», 2007, …səh.

Təqdim olunan kitab görkəmli ingilis alimi Arnold Toynbinin (1889-1975) 12 cildlik «Tarixi anlama» əsərində irəli sürülən müddəaların təhlili əsasında yazılıbdır. A.Toynbi bəşəriyyətin tarixini vahid tam kimi deyil, lokal sivilizasiyaların qarşılıqlı münasibəti kimi təhlil edir. Müəllif bu fikri bütövlükdə qəbul etmir və öz mülahizələrini əsaslandırmağa çalışır, orijinal və maraqlı hesab etdiyi fikirləri də ətraflı araşdırır.

İSBN 9952-428-04-09

Bakı – «Səda» - 2007

## İÇİNDƏKİLƏR

*ÖN SÖZ* ........ *5*
*TARİXİ TƏFƏKKÜR VƏ TARİXİN PREDMETİ HAQQINDA* ........ *7*
*BİRİNCİ FƏSİL* ........ *14*
*SİVİLİZASİYALARIN MÜQAYİSƏLİ TƏDQİQİ* ........ *14*
1. Bir növdən olan cəmiyyətlər və onların təsnifatı ........ 14
2. Bir növdən olan cəmiyyətləri fərqləndirən amillər ........ 31
*İKİNCİ FƏSİL*
*SİVİLİZASİYALARIN GENEZİSİ* ........ *41*
1. Sivilizasiya genezisinin təbiəti və səbəbləri ........ 41
2. Çağırış və cavab: müxtəlif sivilizasiyaların genezisi ........ 46
3. Sivilizasiyaların və sosial sıxışdırmaların stimulları ........ 49
3.1. Sivilizasiyaların stimulları ........ 49
3.2. Sosial sıxışdırmaların stimulları ........ 54
4. Qərbi Avropa tarixində altı forpost ........ 59
*ÜÇÜNCÜ FƏSİL*
*SİVİLİZASİYALARIN BÖYÜMƏSİ* ........ *67*
2. Sivilizasiyaların böyüməsi prosesi ........ 70
3. Sivilizasiyaların tarixində getmə və qayıtma ........ 76
*DÖRDÜNCÜ FƏSİL*
*SİVİLİZASİYALARIN SINMASI* ........ *80*
*BEŞİNCİ FƏSİL*
*SİVİLİZASİYALARIN PARÇALANMASI* ........ *85*
1. Sosial parçalanmanın təbiəti və səbəbləri ........ 85
2. Mənəviyyatda parçalanma ........ 88
3. Arxaizm və futurizm ........ 96
4. Dağılma ritmləri ........ 102
*ALTINCI FƏSİL*
*UNİVERSAL DÖVLƏT* ........ *107*
1. Universal dövlətin əlamətləri və vasitələri ........ 107
2. Universal dövlətlər məqsəd kimi ........ 110
*YEDDİNCİ FƏSİL*
*«QƏHRƏMANLIQ» ƏSRLƏRİ* ........ *113*
1 Barbar keçmiş ........ 113
2. Reallığın obrazı ........ 117

*SƏKKİZİNCİ FƏSİL*
*SİVİLİZASİYALARIN KONTAKTI*............................120
1.Məkanda sivilizasiyaların kontaktı........................... 120
2.Zamanda sivilizasiyaların kontaktı........................... 130
Siyasi və hüquqi sistemlərdə intibah........................... 130
3. Bir-birinin müasiri olan sivilizasiyalar........................... 135
arasında kontaktın sosial nəticələri........................... 135
4. Bir-birinin müasiri olan sivilizasiyalar arasında........................... 140
kontaktın psixoloji nəticələri........................... 140
*DOQQUZUNCU FƏSİL*
*YENİDƏN MƏNALANDIRMA*............................145
1. İslamın tarixdə yeri........................... 145
2. Yəhudiliyin tarixdə yeri........................... 149
1.Qərbin tarixdə yeri........................... 151
4. Rusiyanın tarixdə yeri........................... 153
5. Sivilizasiyaların təsnifatına yenidən baxış........................... 158
*TARİXİN MƏQSƏDİ*............................163



## ÖN SÖZ

Arnold Toynbinin lokal sivilizasiyalar nəzəriyyəsi burada onun özünün müəyyənləşdirdiyi ardıcıllıqla təhlil edilir. O, tarixdə mövcud olmuş sivilizasiyaları üç nəslə bölür. **Birinci nəsil** sadə, kiçik, yazısı olmayan mədəniyyətlərdir. Onların sayı çox, yaşları isə azdır. Onlar birtərəfli ixtisaslaşmaları ilə fərqlənirlər və konkret coğrafi məkandakı həyata uyğunlaşırlar. Onlarda dövlətçilik, təhsil, dini təşkilatlar, elm və incəsənət olmur. Bu mədəniyyətlər kortəbii çoxalır və məhv olur. **İkinci nəsil** sivilizasiyalarda sosial əlaqə, yeni sosial qaydaları meydana gətirən yaradıcı şəxsiyyətlərə doğru yönəlib; ikinci nəsil sivilizasiyaları dinamik və çevikdir, Roma və Babil kimi böyük şəhərlər qurur, əmək bölgüsü, əmtəə mübadiləsi və bazarı inkişaf etdirir. Sənətkarlar təbəqəsi, tacirlər, zehni əmək adamları meydana gəlir, ranqlar və statusların mürəkkəb sistemi yaranır. Burada demokratiya atributları, seçkili orqanlar, hüquq sistemi, özünüidarə, hakimiyyət bölgüsü inkişaf edə bilir. **Üçüncü nəsil** sivilizasiyalar din əsasında formalaşır.

A.Toynbinin dediyinə görə, XX əsrə qədər mövcud olmuş otuz sivilizasiyalardan 7-si və yaxud 8-i qalıb: xristianlıq, islam, buddizm, hinduizm və başqaları.

Öz sələfləri kimi Toynbi də sivilizasiyaların inkişafının siklik (dövrü) sxemini qəbul edir: yaranma, artma, çiçəklənmə, sökülmə və dağılma dövrləri. Lakin bu sxem qaçılmaz deyil, sivilizasiyaların məhvi ehtimaldır, lakin zəruri deyil. Sivilizasiyalar da insanlar kimi uzaqgörən deyildir: onlar özlərinin inkişafını təmin edən öz hərəkətlərinin və vacib şəraitin daxili hərəkətverici qüvvəsini axıra qədər başa düşmürlər. A.Toynbinin dediyinə görə, fikrin tarixi prosesə təsir dərəcəsi artır. Alimlərin nüfuzu və onların siyasi həyata, iqtisadiyyata və gündəlik həyata təsiri getdikcə güclənir.

A.Toynbinin lokal sivilizasiyalar nəzəriyyəsi əvvəlcə Qərbdə, sonra isə bütün dünyada geniş yayılıbdır. Bunu nəzərə alaraq mən onun bu nəzəriyyəsinin məhz Azərbaycan dilində elmi təhlilini daha ətraflı vermək qərarına gəldim. Burada mən məqsədyönlü olaraq A.Toynbi haqqında yazılmış çoxsaylı kitab və məqalələrdən istifadə etmədim, onun 12 cildlik «Tarixi anlama»[1] əsərində irəli sürdüyü və əsaslandırmağa çalışdığı müddəaları şərh edir və onlara öz münasibətimi bildirirəm. Təqdim olunan kitab referativ deyil, analitik xarakter daşıyır.

Ümid edirəm ki, XX əsr Qərbdə meydana gəlmiş tarixin fəlsəfəsini, o cümlədən A.Toynbinin konsepsiyasını öyrənənlər üçün bu kitabın müəyyən qədər faydası olacaqdır.

[1] Bu əsərin I-VII cildləri 2003-cü ildə Moskvada rus dilində çap olunmuş «Tarixi anlama» kitabında, VIII-XII cildləri isə 2006-cı ildə yenə orada «Sivilizasiya tarixin məhkəməsi qarşısında» kitabında çap olunmuşdur. İqtibaslar yalnız bu iki kitabdan gətirildiyi üçün müəllif onlrаı şərti olaraq «I» və «II» rəqəmləri ilə sıralayır. «Tarixi anlama» kitabından iqtibas gətiriləndə mətndə mötərizə içərisində əvvəlcə sıra nömrəsi, yəni «I», sonra isə səhifə göstərilir. Məsələn, (I, s.18). «Sivilizasiya tarixin məhkəməsi qarşısında» kitabından iqtibas gətiriləndə isə, müvafiq olaraq «II», sonra səhifə göstərilir. Məsələn, (II, s.250)



## TARİXİ TƏFƏKKÜR VƏ TARİXİN PREDMETİ HAQQINDA
### (giriş əvəzi)

A.Toynbi tarixi təfəkkürün nisbiliyini xüsusi vurğulayır. Çünki tarixi idrakda subyektiv amil müstəsna rol oynayır. Onun fikrincə, konkret insan cəmiyyətlərinin təmsilçiləri yaşadıqları sosial mühitin tələblərinə uyğun olaraq hərəkət edirlər. Tarixi yazan insanlar da yaşadıqları zaman və yerə bağlı olduqları üçün cəmiyyətdə mövcud olan ənənələrə də bağlı olurlar. Deməli, A.Toynbinin dediyindən belə çıxır ki, tarixçi həqiqəti tam ifadə edə bilməz, o, yaşadığı sosial mühitin tələblərinə əməl etməli, öz cəmiyyətinin əleyhinə getməməli, qonşu cəmiyyətlərə münasibətdə isə xoşməramlı olmamalıdır. Qərb dünyası da öz tarixi inkişafında uzun dövr keçərək indiki vəziyyətə çatıb və iki dayaq üzərində durur: sənaye və demokratiya. A.Toynbi yazır: «Hər yerdə və istənilən cəmiyyətdə tarixin öyrənilməsi və dərk edilməsi, bütün başqa sosial fəaliyyət kimi həmin vaxtın və yerin hakim ənənələrinə tabedir. İndiki anda Qərb dünyasının həyatını iki institut (təsisat) müəyyən edir: iqtisadiyyatın sənaye sistemi və bizim «demokratiya» adlandırdığımız elə mürəkkəb və dolaşıq siyasi sistemi ki, suveren milli dövlətin parlament nümayəndəliyinə əsaslanan məsul hökuməti nəzərdə tuturuq» (I, s.18).[1] O dövrdəki Qərb demokratiyasını «mürəkkəb və dolaşıq siyasi sistem» adlandıran A.Toynbi, görünür ki, daha yetkin siyasi quruluş arzulayırdı.

Sənayeləşməni müasir Qərb dünyasının əsas xarakter xüsusiyyəti hesab edən A.Toynbi, onun iki aspekti üzərində dayanır: humanitar və fiziki-təbii cəhətləri. Sənayenin insanın həyat şəraiti ilə bilavasitə əlaqədar olan humanitar aspekti deyəndə o, əmək bölgüsünü nəzərdə tutur, çünki

[1] А.Дж. Тойнби. Постижение истории. М., «Айрис-Пресо», 2003, с.18.

əmək bölgüsü mövcud cəmiyyətin mahiyyətini müəyyənləşdirir. Sənaye, onun fikrincə, insan əməyi ilə onu əhatə edən fiziki mühit arasında qarşılıqlı əlaqə və təsir nəticəsində fəaliyyət göstərir. İnsan xammalı təbiətdən alır, öz əməyini təşkilatlandırır, onu asanlaşdırmaq üçün mexanikləşdirir və bu yolla məhsul istehsal edir. Sənaye istehsalına müəyyən hazırlığı olan çox sayda insan cəlb edilir. A.Toynbi bu münasibətlə yazır: «Sənaye sisteminin humanitar aspekti bilavasitə insan, əmək bölgüsü ilə əlaqədardır; onun başqa aspekti insanın yaşadığı fiziki mühitə yönəlibdir. Sənaye sisteminin vəzifələri insan əməyi vasitəsilə xammalın müəyyən məhsula çevrilməsi üçün mexaniki cəhətdən təşkilatlanmış bu əməyə böyük miqdarda insan cəlb etməklə özünün istehsal qabiliyyətini maksimum dərəcədə artırmaqdan ibarətdir» ( I, s.18).

Tarixçi, A.Toynbiyə görə, dünyanın müxtəlif regionlarında mövcud olan cəmiyyətlərin keçdiyi yolu təsvir və təhlil etməlidir. İndiki halda isə industrial inkişaf səviyyəsinə çatmış cəmiyyətlərin yuxarıda göstərilən iki aspektini tarixi baxımdan tədqiq etmək zəruridir. O, xüsusi qeyd edir ki, Qərbdə yaranan sənaye sistemi tarix yazan insanın təfəkkürünü zorla ələ alır, istədiyi tərəfə yönəldir və məcbur edir ki, insanlar arasındakı münasibətləri məhz bu baxımdan izah etsin. A.Toynbi yazır: «Tarixi təfəkkür həm də ona yad olan sənaye sistemi tərəfindən zəbt edilir, insanlar arasındakı münasibətlər məhz bu sferada tədqiq edilir, Qərbin sənaye sistemi nümayiş etdirir ki, o heç də insanların yaşamaq və işləmək istədiyi rejim deyil» (I, s.19). O, kapitalizmin tənqidini belə başlayır.

Yeni dövrdən başlayaraq formalaşan Qərb cəmiyyəti, A.Toynbinin fikrincə, XIX əsrin axırlarına qədər faktiki olaraq iki nəhəng qüvvənin hökmranlığı altında inkişaf etmişdir: sənayeləşmə və millətçilik. Onun fikrincə, millətçilik Avropada hətta sənaye və demokratiyadan da güclü amil olmuşdur. A.Toynbi hesab edir ki, millətçilik və



sənayeləşmə amilləri ayrılıqda, təkbaşına müasir kapitalizm cəmiyyətini yaratmaq imkanında olmamışlar, onlar birləşəndən sonra tarixi tərəqqini təmin edə bilmişlər. O, xüsusi vurğulayır ki, bu iki amil sayəsində meydana gələn cəmiyyətlər arasında da həmişə tam həmrəylik və birlik olmamışdır, onların hər biri ayrılıqda hökmranlığa can atmışlar. A.Toynbi bu münasibətlə yazır: «Sənayeləşmə və millətçilik (industrializm və demokratiyadan daha çox) elə iki qüvvədir ki, faktiki olaraq Qərb cəmiyyətində hökmranlıq etmişlər (təxminən 1875-ci ilə qədər). Sənaye inqilabi və millətçiliyin indiki forması birgə fəaliyyət göstərmiş və özü-özlüyündə sanki kosmosa çevrilmiş, hər biri universal əhatə dairəsinə malik olmaq iddiasında olan «böyük imperiyalar» yaratmışlar» (I, s.22). Doğrudan da, sənayeləşmədən sonra Qərbi Avropada milli dövlətlər yaranmış, onlar arasında sərhədlər müəyyənləşmiş. Yeni əsasda yaranan bir sıra milli dövlətlər sözün həqiqi mənasında böyük imperiyalar yaratmışlar (İngiltərə, Fransa, Hollandiya və b.).

Göstərildiyi kimi, sənayeləşmə və millətçilik sayəsində inkişaf edərək tərəqqi yoluna çıxan Qərb dünyasında, A.Toynbinin dəfələrlə vurğuladığı kimi, demokratiya istənilən səviyyəyə yüksələ bilməmişdir. O, öz müasirlərinin çoxundan fərqli olaraq bu fikir üzərində israr edirdi. O, belə bir mübahisə doğuran fikir irəli sürürdü ki, müasir demokratiya Qərbdə meydana gəlsə də buradakı qabaqcıl ölkələr üçün heç də spesifik bir hadisə olmamışdır. A.Toynbi qətiyyətlə deyir: «Başqa sözlə, lokal olaraq parlament sistemi lokal şəkildə İngiltərədə meydana gəlsə də, nə İngiltərə, nə də Fransa üçün spesifik olan qüvvənin məhsulu deyil» (I, s.28).

A.Toynbi sənayeləşmə dövründə Qərbdə milli dövlətlərin, ümumiyyətlə millətçiliyin mövcud olduğunu nəinki şübhə altına almır, əksinə onun varlığını sübut edir. Lakin bununla yanaşı xüsusi olaraq vurğulayır ki,

millətçilik Avropa üçün xarakterik hadisə olmamış. O, göstərir ki, millətçilik hər bir Qərb cəmiyyətinin daxilindən gələn təbii hadisə olmamış, hansısa ümumi fenomenin təsiri altında meydana gəlmişdir. Bu fikri süübut etmək üçün A.Toynbi bir sıra müddəalar irəli sürür, onların bəziləri, mənim fikrimcə, inandırıcı, bəziləri isə inandırıcı deyil. Lakin o, öz konsepsiyası üzərində israrlıdır. O, yazır: «Tarixin fəaliyyətdə olan qüvvələri milli deyil, daha ümumi səbəblərdən meydana gəlir. Onlar özlərinin xüsusi milli təzahürlərində götürüləndə başa düşülməz, ona görə də onları bütün cəmiyyət miqyasında araşdırmaq lazımdır. Eyni zamanda müxtəlif hissələr eyni qüvvənin təsirini müxtəlif şəkildə hiss edir, çünki onların hər biri xarici təsirə özünəməxsus, müxtəlif cür cavab verir və həm də əks təsir göstərir» (I, s.30). Beləliklə, göründüyü kimi, A.Toynbi millətçiliyi Qərb cəmiyyətləri üçün yad hadisə hesab edir, hansısa xarici təsirdən danışır. Lakin eyni zamanda burada müxtəlifliyin də olduğunu etiraf edir və göstərir ki, bu müxtəliflik daha çox həmin «xarici təsirə» fərqli cavablarda təzahür edir. Mən isə hesab edirəm ki, Yeni Dövrdə Avropada meydana gələn millətçilik sırf yerli xarakter daşımış və əlbəttə, xarici təsirə də məruz qalmışdır.

Özünün lokal sivilizasiyalar nəzəriyyəsinə axıra qədər sadiq qalan A.Toynbi, millətçiliyi Avropa üçün xarakterik hadisə hesab etməsə də, Qərbin ümumi cəhətlərini xüsusi vurğulayır. Məsələn, bütün Qərbi Avropa ölkələri üçün ümumi olan feodal quruluşu eyni mənşədən olduğu üçün eyni formada təzahür etmişdir. O, sübut etməyə çalışır ki, feodalizm əvvəlcə İngiltərədə yaranmış və sonra Avropanın qonşu ölkələrinə keçmişdir. A.Toynbi inkar etmir ki, feodalizm eyni vaxtda həm də Bizansda və ona qonşu olan müsəlman ölkələrində də meydana gəlmişdir. Lakin, onun dediyinə görə, Qərbdə və Şərqdə mövcud olmuş feodalizmin meydana gəlmə səbəbləri müxtəlif olmuşdur. A.Toynbi yazır: «İngiltərədə meydana gələn formada qurulan feodal sistemi Qərbi Avropanın spesifik inkişafının məhsuludur. Doğrudur, feodalizm eyni vaxtda



Bizansda və müsəlman dünyasında da mbvcud olmuşdur, lakin sübut edilməyibdir ki, orada feodalizm Qərbi Avropadakı feodalizm ilə eyni səbəbdən meydana gəlibdir» (I, s.35). Qərbdə və Şərqdə feodalizmi meydana gətirən səbəblər əlbəttə, eyni ola bilməz, heç olmasa ona görə ki, burada müxtəlif sivilizasiyalara məxsus ənənələr mövcud olmuşdur.

A.Toynbi həm Qərbdə, həm də Şərqdə feodalizmin mövcudluğunu, yuxarıda da deyildiyi kimi, qəbul edir. Lakin bu ölkələrdəki feodalizmlərin faktiki olaraq tamamilə müxtəlif cəmiyyətlər olduğunu deyir, onlar arasında oxşarlıq axtarmağı boş və səmərəsiz cəhd adlandırır. Onun fikrincə, müxtəlif feodalizmləri aralarında ciddi oxşarlıq olmayan cəmiyyətlər kimi şərh etmək lazımdır. A.Toynbi yazır: «...Oxşarlıq axtarmaq cəhdləri çox olmuşdur, lakin yaxından baxarkən belə qondarma oxşatmalar gerçəkliyin yoxlamasından keçə bilməmişlər. Qərbi Avropada, Bizans İmperyiasında, müsəlman Misirdə və Türkiyədə, Hindistanda, həmçinin Yaponiyadakı feodalizmlər tamamilə müxtəlif institutlar kimi nəzərdən keçirilməlidir» (I, s.35). Lakin, mənim fikrimcə, məlum olmur ki, nə üçün tamamilə müxtəlif cəmiyyətləri A.Toynbi eyni feodalizm adı altında şərh edir? Əgər bu cəmiyyətlər eyni adlandırılırsa, deməli, onlar arasnıda ciddi oxşarlıq olmalıdır. Məntiq bunu tələb edir.

A.Toynbi kimi görkəmli və ciddi alim belə uyğunsuzluğu görməyə bilməzdi. O, göstərir ki, Qərb cəmiyyəti üçün uyğun ad axtaranda, istər-istəməz müxtəlif fikirlər yaranır, yeni adlar ağıla gəlir. A.Toynbi burada sosial-siyasi, iqtisadi amillərlə deyil, yalnız mədəni baxımdan yanaşanda, başqa regionlarda da Qərbdəki kimi adlanan dörd fərqli cəmiyyətlərin mövcud olduğunu göstərir. Burada da o, lokal sivilizasiyaların bir-birindən asılı olmayaraq fəaliyyət göstərdiyini ön plana çəkir.

A.Toynbi öz təsnifatında lokal cəmiyyətlər siyahısına Afrikanı (qitənin şimalı istisna olmaqla), Amerikanı və Yer Kürəsinin şimal hissəsini daxil etmir. Dünyanın taleyini Qərb sivilizasiyasından başqa, Şərq xristianlığı, islam dünyası, Hind

**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**

